Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

Layihənin istiqaməti:
" İctimai və dövlət maraqlarının müdafiəsi"

# Avropaya təhsilə göndərilən 99 gənc

## Onlardan intihar edənlər, həbsə düşənlər və ömrünü qürbətdə başa vuranlar da oldu

**Bu danılmaz bir faktdır ki, Azərbaycan Xalq Cümhuriyyəti varlığının ilk günlərindən daha çox maarif, elm, təhsil məsələlərinə qayğı ilə yanaşmış, xüsusi diqqət yetirmişdir. Heç də təsadüfi deyil ki, 1918-ci il mayın 28-də - Azərbaycanın müstəqilliyi elan edildiyi gün Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış birinci hökumət kabinəsində Xalq Maarif Nazirliyi də təsis olundu. Hökumətin həyata keçirdiyi ən mühüm tədbirlərdən biri də müxtəlif sahələrdə ali təhsilli mütəxəssislər hazırlamaq üçün yüz nəfər azərbaycanlı gəncin Avropanın ali məktəblərinə göndərilməsi olmuşdu.**

Azərbaycan Parlamentinin 1919-cu il sentyabrın 1-də keçirilən 70-ci iclasında Bakı Dövlət Universitetinin təsisi ilə yanaşı, 1919-20-ci tədris ilindən başlayaraq, yüz nəfər azərbaycanlı gəncin hökumət hesabına təhsil almaq üçün xarici ölkələrin nüfuzlu ali məktəblərinə göndərilməsi haqqında məsələ də müzakirə edilmişdi. Bu, parlament üzvləri tərəfindən çox yaxşı qarşılanmış, onlar ölkənin hərtərəfli inkişafı üçün tələbələrin xarici ölkələrdə ali təhsil almağa göndərilməsi məsələsini alqışlamışdılar. Hökumət də bu işin reallaşması üçün dövlət xəzinəsindən 7 milyon manat vəsait ayırmışdı. Bura Avropa ali məktəblərinə göndərilən hər tələbəyə ayda 400 frank təqaüd və 1000 frank yol xərci, Rusiya ali məktəblərinə göndəriləcək tələbələrə isə hər ay 3 min rubl təqaüd və 1000 rubl yol xərci verilməsi daxil idi.

M.Ə.Rəsulzadənin sədrlik etdiyi münsiflər heyəti tərəfindən diqqətlə seçilən tələbələrdən 10 nəfərin İngiltərəyə, 23 nəfərin İtaliyaya, 45 nəfərin Fransaya, 9 nəfərin Türkiyəyə göndərilməsi planlaşdırılsa da, nəticədə 49 nəfərin Almaniyaya, 27 nəfərin Fransaya, 4 nəfərin İtaliyaya, 1 nəfərin İngiltərəyə, 6 nəfərin isə Türkiyənin müxtəlif ali məktəblərinə göndərilmələri barədə rəsmi sənəd imzalanıb. Qalan 13 nəfər isə Rusiyaya göndərilməli idi. Lakin Rusiyada vətəndaş müharibəsi başladığına görə ora göndərilməsi nəzərdə tutulan 13 tələbə gedə bilmədi.

Seçilən tələbələr 1920-ci ilin 14 yanvarında parlament və hökumət nümayəndələrinin, tanınmış ziyalıların, xeyriyyəçilərin xeyir-duası ilə təntənəli şəkildə yola salınırlar. Hökumət tələbələrin Batuma getməsi üçün xüsusi vaqon da ayırır. Bu işdə hökumətə yenə də dəstək olan milyonçu-xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev olur. Bu haqda "Azərbaycan" qəzetində və arxiv sənədlərində xeyli faktlar var. Faktlardan belə bəlli olur ki, əcnəbi ölkələrə təhsil almağa göndəriləcək tələbələrin qəbul etdiyi şərtlər H.Z.Tağıyev tərəfindən təsdiq olunmuş maddələrin əsasında hazırlanmışdır. Böyük xeyriyyəçi-milyonçunun şərtləri belə idi:

**1.** Hər tələbəyə təhsil müddəti ərzində 50 manat veriləcəkdir. Yay tətillərində Qafqaza gəliş-gediş xərcləri də ayrıca ödəniləcəkdir.

**2.** Tələbə ali təhsilini bitirdikdən sonra mütləq vətəninə dönərək öz ölkəsinə xidmət edəcəkdir.

**3.** Tələbə qeyri-türklə evlənməyəcəkdir.

**4.** Tələbə təhsilini bitirib həyata atıldıqdan sonra təhsil müddəti ərzində Hacı Zeynalabdindən aldığı pulları Xeyriyyə Cəmiyyətinə birdəfəlik və yaxud da hissə-hissə ödəyəcəkdir.

Azərbaycan parlamentinin xüsusi dövlət komissiyası H.Z.Tağıyevin maddələrini redaktə edərkən çox təəssüflər ki, 3-cü maddəni ixtisara salmışdı. Yeri gəlmişkən, H.Z.Tağıyevin hər bir tələbəyə ayırdığı vəsait zamanına görə böyük məbləğ idi.

Hökumətin diqqət və qayğı ilə yanaşdığı bu məsələyə mətbuat da önəm verib. Xüsusən də "Azərbaycan" qəzeti. Qəzetdə bu məsələdən bəhs edən onlarla məqalələr, elanlar var. Məsələn, qəzetin 9 dekabr 1919-cu il tarixli sayında çap olunan "Müsəlman tələbələrin xarici ölkələrə göndərilməsi" sərlövhəli məqalədə bu haqda ətraflı məlumat verilib. Müəllif yazır ki, hökumət bu tədbiri mütəşəkkil həyata keçirmək məqsədilə tələbələrin nümayəndələrindən ibarət təşkilat yaradır və təşkilat bürosuna sədr Teymur bəy Aslanov seçilir. Teymur bəy Aslanov və Maarif Nazirliyinin nümayəndəsi Şahtaxtinski lazımi yol vəsiqələri almaq üçün Tiflis və Batum şəhərlərinə yola düşür.

Nəhayət, xaricə göndərilən tələbələr 14 yanvar 1920-ci də hökumət üzvləri və xalq tərəfindən təntənəli şəkildə yola salınır. Bu haqda "Bəsirət" qəzeti yazırdı: "Gedənləri yola salmaq üçün stansiyaya çoxlu adam, qohum-əqrəba, yoldaşlar və tanışlar, elm və mədəniyyət işçiləri, ədiblər, şairlər, mühərrirlər, müxtəlif partiyaların nümayəndələri gəlmişdilər. Onlar vağzalın böyük salonunda toplaşmışdılar. Məclisi Balaxanı məktəbinin müəllimi Seyidbağır Axundzadə açdı. Səmədağa Ağamalıoğlu, İbrahim Əbilov, Əhməd Pepinov, Salman Mümtaz qürbətə gedənlərə nəsihət və məsləhət verdilər. Gedənlər Cabbar Qaryağdıoğlunun heyrətamiz səsi altında vətəndən yola düşdülər".

Burada bir faktı qeyd etmək istərdim ki, hökumətin xaricdə təhsil almaq üçün göndərməyi qərarlaşdırdığı 100 tələbədən 99 - u yola düşür. Onlardan biri- Miryusif Seyid Cənab oğlu Mir Abdullazadə qəflətən vəfat etdiyi üçün xaricə 99 nəfər gənc yola salınır.

Min bir arzu-istəklə xaricə təhsil üçün üz tutan gənclər 1920-ci ilin 11 fevralında Parisə çatırlar. Onlar burada Paris Sülh Konfransında iştirak edən Azərbaycan nümayəndə heyəti tərəfindən yüksək səviyyədə qarşılanır və buradan təhsil almaq üçün Avropanın müxtəlif şəhərlərinə yola düşürlər.

Çox təəssüf ki, böyük istək və həvəslə



Qərənfil Dünyamin qızı
Əməkdar jurnalist

Avropada təhsil almağa gedən bu gənclərin taleyi aprel işğalından sonra çox acınacaqlı oldu. Bolşevik hökuməti tələbələrə maddi yardım etməkdən imtina etdikdə onlar ümidlə Nəriman Nərimanova müraciət etdilər. 9 avqust 1920-ci ildə N.Nərimanovun şəxsi təşəbbüsü və sədrliyi ilə Azərbaycan İnqilab Komitəsinin iclası keçirildi. İclasda N.Nərimanovun təkidilə xaricə göndərilən bu tələbələrin təhsillərini başa vurmaları üçün vəsait buraxılması, onlara hər cür maddi yardım edilməsi məsələsi qaldırıldı və məsələ Xalq Maarifi və Xalq Xarici İşlər komissarlıqlarına həvalə edildi. Bütün bunları qanuniləşdirmək üçün N.Nərimanov Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri kimi xüsusi qərar imzaladı və Bəhram Axundovu xaricdə oxuyan azərbaycanlı tələbələrin işləri üzrə xüsusi müvəkkil təyin etdi. Bundan sonra B.Axundov azərbaycanlı tələbələrin oxuduqları xarici ölkələrin paytaxtlarına ezam olundu. Çox çətinliklə ezamiyyətini başa vuran xüsusi müvəkkil 1922-ci ilin martında Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri N.Nərimanova hesabat təqdim etdi. N.Nərimanov həmin hesabat əsasında xaricə oxumağa gedən azərbaycanlı tələbələrə təhsillərini davam etdirmək üçün lazımı şəraitin yaradılmasını tapşırdı.

1922-ci ilin sonlarında N.Nərimanov Moskvaya işə aparıldıqdan sonra xaricdə oxuyan azərbaycanlı tələbələrə münasibət yenə dəyişdi. Bolşevik hökuməti maddi yardımı kəsdi. Belə olduqda tələbələrin böyük əksəriyyəti təhsil haqqını ödəyə bilmədilər. Günü-gündən acınacaqlı vəziyyətə düşən tələbələrdən intihar edənlər, həbsə düşənlər və bütün ömrünü qürbətdə başa vuranlar da oldu. Çox çətinliklərlə təhsilini başa vurub gələnlərin isə əksəriyyəti sovet təbliğatının qurbanına çevrildilər. Çox az bir qismi isə öz doğma vətənində yad kimi, hər cür təqiblərə məruz qalaraq 1950-60-cı illərə kimi yaşadı.

Hörmətli və əziz oxucum! Yəqin sənin üçün də maraqlıdır ki, bu tələbələr kimlər idi və onların hər birinin sonrakı taleyi necə oldu? Odur ki, gələn saylarımızdan başlayaraq hər dəfə bu 99 gənc tələbədən biri haqqında "99-dan biri" sərlövhəsi altında söhbət açacağam.

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*

# AMEA alimləri nümunəvi dərslər tədris edəcəklər

## Şagirdlərin elmi araşdırma məsələləri üzərində işləməyə həvəsləndirilməsi və dünyagörüşünün düzgün istiqamətdə formalaşdırılması məqsədilə

**Təhsil Nazirliyi ilə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) arasında əldə olunmuş razılığa əsasən, AMEA-da çalışan alimlər ümumi təhsil müəssisələrində nümunəvi dərslər tədris edəcəklər. Təhsil Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, nümunəvi dərslər təhsil naziri Mikayıl Cabbarovun AMEA-nın 70 illik yubileyi mərasimində "Elmdən Təhsilə" adlı məqsədli proqram ilə bağlı irəli sürdüyü təşəbbüsə uyğun olaraq təşkil ediləcək.**

Qeyd olunub ki, AMEA alimlərinin elmi və elmi-populyar mövzular üzrə tədris edəcəkləri dərslər elmlə təhsil arasında əlaqənin genişləndirilməsi, məktəblilərin elmə marağının artırılması və tanınmış alimlərin ardıcıllarının yetişdirilməsi məqsədlərinə xidmət edir: "Şagirdlərin elmi araşdırma məsələləri üzərində işləməyə həvəsləndirilməsi və dünyagörüşünün düzgün istiqamətdə formalaşdırılması da bu layihənin əsas qayələrindəndir".



Ümumi təhsil müəssisələrində elmi və elmi-populyar mövzular üzrə nümunəvi dərslər aparacaq alimlərin siyahısı da açıqlanıb:

Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasov, Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutunun direktoru, akademik Vaqif Fərzəliyev, Akademik H.Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov M.Füzuli adına Əlyazmalar İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Möhsün Nağısoylu, AMEA-nın nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin bölmə rəhbəri, geologiya-mineralogiya üzrə elmlər doktoru Tahir Məmmədli, Geologiya və Geofizika İnstitutunun şöbə müdiri, geologiya-mineralogiya üzrə elmlər doktoru Adil Əliyev, Riyaziyyat və Mexanika İnstitutunun Həmkarlar Təşkilatının sədri, riyaziyyat üzrə fəlsəfə doktoru Əli Babayev, Fizika İnstitutunun aparıcı elmi işçisi, fizika üzrə fəlsəfə doktoru Bəxtiyar İzzətov, Botanika İnstitutunun aparıcı elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru Pərvanə Qaraxani, Zoologiya İnstitutunun aparıcı elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru Namiq Mustafayev, A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Dilavər Əzimli və İnsan Hüquqları İnstitutunun elmi işçisi Aida Bəndəliyeva.